# Seçkilərin demokratik və ədalətli keçməsinə şübhə ola bilməz



***Azərbaycan müstəqilliyini bərpa edəndən sonra seçkilər sahəsində də zəngin təcrübə qazanıb. Demokratik ölkələrin, beynəlxalq təşkilatların təcrübəsi ilə milli dəyərlərin vəhdəti şəklində formalaşan seçki sistemi ötən dövrdə Azərbaycanın çoxşaxəli inkişafına mühüm töhfələr verib. Müşahidəçilərin yekun rəylərində bildirilir ki, dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycanda keçirilən çoxsaylı seçkilərin hər biri əvvəlkilərdən daha keyfiyyətli şəkildə təşkil olunur.***

Seçkinin keyfiyyət göstəricisi demokratiya, ədalət və şəffaflıqdır. Bu gün Azərbaycanın seçki təcrübəsi müxtəlif ölkələr tərəfindən öyrənilir. Azərbaycanın seçki qanunvericiliyi beynəlxalq hüququn əsas prinsiplərinə tam şəkildə uyğun hazırlanıb.

Mən də bu seçkidə iştirak etdim. Açığını deyim ki, səs verdiyim məntəqədə seçicilərin yüksək fəallığını gördüm. Seçicilərin sərbəst səs vermələri üçün gözəl şərait yaradılmışdı. Məntəqədə xeyli müşahidəçi vardı. Mən də sərbəst olaraq istədiyim namizədə səs verdim.

Televiziya vasitəsilə seçkilərin keçirilməsi prosesini də diqqətlə izlədim. Xarici müşahidəçilərin rəylərini dinlədim. Bütün müşahidəçilər Azərbaycanda parlament seçkilərinin yüksək səviyyədə keçdiyini qeyd edirdilər. Bu, çox qürurvericidir.

Fürsətdən istifadə edib parlament seçkilərində uğur qazanan namizədləri təbrik edirəm.

***Siyavuş KƏRİMİ,***
***Azərbaycan Milli Konservatoriyasının rektoru,***
***Xalq artisti, bəstəkar***

Xalq qəzeti 2020.- 13 fevral.- S.9.